Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

QƏRBİ AZƏRBAYCAN İCMASI
WESTERN AZERBAIJAN COMMUNITY

AZƏRBAYCAN MİLLİ
XALÇA MUZEYİ

# QƏRBİ AZƏRBAYCAN XALÇALARI:
## tarixi naxış yaddaşımız

# WESTERN AZERBAIJANI CARPETS:
## The Memory of Our Historical Pattern

- 4285 -

Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKU - 2023

85.125 (5 Azə)
Q 48

**Layihənin rəhbəri:** **Şirin Y. Məlikova,**
Azərbaycan Milli Xalça Muzeyinin direktoru,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Mətnlərin müəllifləri:** **Əziz Ələkbərli,**
Milli Məclisin deputatı,
Qərbi Azərbaycan İcmasının sədri
**Şirin Y. Məlikova,**
Azərbaycan Milli Xalça Muzeyinin direktoru,
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Aytən Əhmədova,**
sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Məmmədhüseyn Hüseynov,**
Azərbaycanın Əməkdar rəssamı, dosent

**Tərcüməçi** **Lalə Mikayılova**

**Redaktor:** **Nuranə Səlimli,**
sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Fotoqraf və bədii tərtibat:** **Sahib Mansurov**

**Qərbi Azərbaycan xalçaları: tarixi naxış yaddaşımız. Bakı, 2023. 64 səh.**

**© Azərbaycan Milli Xalça Muzeyi. 2023**

---

**Project director:** **Shirin Y. Melikova,**
Director of the Azerbaijan National Carpet Museum,
PhD in Arts, Associate Professor

**Text authors:** **Aziz Alakbarli,**
Deputy of the National Assembly,
Chairman of the Western Azerbaijan Community
**Shirin Y. Melikova,**
Director of the Azerbaijan National Carpet Museum,
PhD in Arts, Associate Professor
**Aytan Ahmadova,**
PhD in Arts
**Mammadhuseyn Huseynov,**
Honoured Artist of Azerbaijan, Associate Professor

**Translator:** **Lala Mikailova**

**Editor:** **Nurana Salimli,**
PhD in Arts

**Photographer and artistic designer:** **Sahib Mansurov**

**Western Azerbaijani Carpets: The Memory of Our Historical Pattern. Baku, 2023. 64 pages.**

**© Azerbaijan National Carpet Museum. 2023**

**ISBN: 978 - 9952 - 8420 - 6 - 7**

Azərbaycan xalça sənəti mədəni irsimizin ayrılmaz tərkib hissəsidir. Bu sənət nümunələrində milli kimliyimizin bir çox elementləri əbədiləşmişdir. Xalça nümunələrində millətimizin etnogenetik kodları, Azərbaycan xalqının formalaşmasında yaxından iştirak edən türk tayfalarının damğaları, həyat, fəaliyyət, inam, inanc elementləri, düşüncə atributları və s. öz əksini tapmışdır.
Qərbi Azərbaycan da bütün milli-mənəvi dəyərləri ilə bütöv Azərbaycanın ayrılmaz hissəsidir və eyni etno-mədəni sistemə daxildir. Təbii ki, Azərbaycanın başqa bölgələri kimi, həm də regional özünəməxsusluqlara sahibdir. Buna görə də Qərbi Azərbaycanda xalçaçılıq sənətinin öyrənilməsi son dərəcə vacib və milli məsələdir. Həm də ümummilli məsələdir, ona görə ki, ermənilər 30 il işğal altında saxladıqları ərazilərimizdə, xüsusilə Qərbi Azərbaycanda ana-nənələrimizin toxuduqları xalça nümunələrini dünya ictimaiyyətinə erməni xalçaları kimi təqdim və təbliğ etməkdədirlər.
Halbuki Azərbaycanda, o cümlədən Qərbi Azərbaycanda xalçaçılığın çox qədim, eradan əvvələ uzanan bir tarixi var. Bu barədə çoxlu sayda arxeoloji və yazılı bəlgələr mövcuddur. Bu bəlgələr sübut edir ki, Qərbi Azərbaycan ərazisində yaşayan azərbaycanlı-türk əhali əsrlər boyu həm xovlu, həm də xovsuz texnika əsasında xalça və xalça məmulatları toxuyub.
Xalça sənətinin erkən dövründə Qərbi Azərbaycanda dəvə, qoyun yunundan, pambıqdan bəzəksiz, saya yerlikli palazlar, cecimlər daha çox toxunmuşdur. Daha sonrakı dövrdə yun, pambıq və ipəkdən kilimlər toxunduğu müşahidə olunur. Zaman keçdikcə xalçaçılıq sənəti həm forma, həm də məzmunca təkmilləşmə və zənginləşmə prosesi keçir, Qərbi Azərbaycan əhalisinin məişətinin ayrılmaz hissəsi olmuş xurcun, heybə, çuval, məfrəş, çul, sicim, çatı və s. məişət əşyaları meydana gəlir.
Bu xalçalar Qərbi Azərbaycan ərazisində yaşayan azərbaycanlıların adət-ənənələrinin, məişətinin, mədəniyyətinin araşdırılması baxımından da mühüm əhəmiyyət kəsb edir.
Qərbi Azərbaycan xalça nümunələri özünəməxsus xüsusiyyətləri ilə yanaşı, Azərbaycanın digər xalça məktəbləri ilə ortaq cəhətlərə də malikdir. Bunu coğrafi baxımdan qonşu ərazilərdə daha çox müşahidə edirik. Məsələn, Qərbi Azərbaycanın Ağbaba, Şörəyel, Loru və Pəmbək mahalları ərazisində toxunmuş xalça və xalça məmulatları ilə Qazax-Borçalı xalça nümunələri arasında xeyli dərəcədə ortaq cəhətlər mövcuddur. Eyni sözü Göyçə mahalında yaşayan azərbaycanlıların toxuduqları xalçalarla Qarabağ və Gəncə xalça nümunələri haqqında da demək olar. Təbii ki, bu əhalinin etnik yaxınlığı ilə yanaşı, həm də bölgələrin mədəni-iqtisadi əlaqələrinin sıxlığı ilə də əlaqədardır. Bu yaxınlıq digər sahələrdə - məişətdə, folklorda və s.-də də özünü aydın büruzə verir.
Torpaqlarımız Ermənistanın 30 illik işğalından azad olunduqdan sonra, tarixi torpaqlarımıza qayıdış milli hədəfimiz olaraq ön sıraya keçdiyi bir vaxtda həmin ərazilərdəki milli dəyərlərimizə yenidən qayıtmaq, onlara sahib çıxmaq bu gün təkcə tarixi zərurət yox, həm də milli şərəf və ləyaqət məsələsidir. Ona görə də bu istiqamətdə atılan hər addımı alqışlayırıq.

**Əziz Ələkbərli**
Milli Məclisin deputatı,
Qərbi Azərbaycan İcmasının sədri





Carpet weaving art is an integral part of Azerbaijani cultural heritage. Many elements of our national identity have been immortalized in these works of art. The ethnogenetic codes of the Azerbaijani people, the tamgas, life, activity, beliefs, belief elements, thought attributes of the Turkish tribes that were closely involved in formation of our nation are reflected in the carpets.
Western Azerbaijan with all its national moral values is an integral part of whole of Azerbaijan and is a part of the same ethno-cultural system. Certainly, like other parts of Azerbaijan it has regional peculiarities of its own. Therefore, the studies on Western Azerbaijani carpet weaving is a crucial issue of national importance. It is also a nationwide issue, since for 30 years the Armenians have been presenting the carpets woven by our antecedents on the occupied lands, and especially in Western Azerbaijan as the Armenian carpets.
However, the carpet weaving in Azerbaijan, including its Western part has an ancient history that goes back to BC. There are many archeological and manuscript evidences of that. These manuscripts prove that the Azerbaijani-Turkic population that inhabited Western Azerbaijan wove carpets and carpet products using both flat and pile techniques.
During the early period of the carpet art they mainly wove unpatterned palases and jejims with simple background from camel or sheep wool and cotton in Western Azerbaijan. Later periods are characterized by the kilims woven using wool, cotton and silk. In the course of time, the carpet weaving art undergone improvement and enrichment of its form and content, the household of Western Azerbaijani population replenished with new items such as khurjun, heyba, chuval, mafrash, chul, sijim, chati.
These carpets are also of great interest in terms of researches on traditions, household and culture of Western Azerbaijani population.
The Western Azerbaijani carpet samples have specific features; at the same time, they have commonalities with other Azerbaijani carpet weaving schools. From geographical point of view, it can be seen more clearly on the example of neighboring territories. For example, the carpets and carpet products woven in Aghbaba, Shorayel, Loru and Pambak counties of Western Azerbaijan have a lot in common with carpet samples woven in Gazakh and Borchali. The same can be said about the carpets of Goycha county and the carpets made in Karabakh and Ganja. Obviously, it is explained by ethnic affinity of the population, as well as by close cultural and economic ties between the regions. This affinity is also clearly manifested in other fields such as household, folklore, etc.
Today, as our lands have been liberated from the Armenian occupation after 30 years, the homecoming to our historical lands has become the main national objective. Thus, the return to our national values is not just a historical necessity, it is also an affair of national honour. We welcome any step in this direction.

**Aziz Alakbarli**
Deputy of the National Assembly,
Chairman of the Western Azerbaijan Community

Yaşadığımız bu qürurlu il Azərbaycanın suverenliyinin tam bərpası ilə müasir dövlətçilik tariximizin şanlı səhifəsinə çevrildi. Belə bir əhəmiyyətli ildə Azərbaycan Milli Xalça Muzeyi Qərbi Azərbaycan İcması ilə birlikdə 5 dekabr 2023-cü il tarixində "Qərbi Azərbaycan xalçaları: tarixi naxış yaddaşımız" adlı sərgini təqdim edir. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində keçirilən sərgidə Qərbi Azərbaycanın Göyçə, Zəngəzur, Ağbaba, Pəmbək və Loru mahallarına aid rayon və kəndlərdə müxtəlif sənətkarlar tərəfindən toxunmuş 20-dən artıq məşhur kompozisiyalı xalça nümunələri nümayiş olunur.
Azərbaycan xalçası özündə xalqın əsrlərin sınağından çıxmış ənənələrini cəmləşdirən, maddi və mənəvi aləm haqqında düşüncələrini əks etdirən, qədim, köklü dəyərlərimizin qorunub saxlanmasına ilham verən əsas simvoldur. Azərbaycan mədəniyyətində xalça məişət predmeti olmaqdan daha çox müxtəlif mədəni təbəqələri, tarixi dövr və üslubları özündə yaşadaraq milli kimliyin və bədii zövqün orijinallığını əks etdirir. Bir sözlə, o, mental-estetik mədəniyyətimizin bir parçası, kainatın quruluşunun düzəni, daim inkişafda olan canlı ənənədir. Minilliklər boyu insanlarımızın həyatının ayrılmaz hissəsi olmuş xalça hər bir bölgəmizdə, tarixən Azərbaycana məxsus olmuş bütün ərazilərdə toxunmuşdur. Belə qədim xalçaçılıq mərkəzlərindən biri də Qərbi Azərbaycandır.
Ən qədim dövrlərdən başlayaraq türk tayfalarının sahibi olduqları bu torpaqlar – Qərbi Azərbaycan ərazisi müxtəlif adlarla hökm sürmüş Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Xalqımızın daim sıx məskunlaşdığı bu regionda tarixən çoxsaylı memarlıq abidələri inşa edilmiş, yüksək saray mədəniyyəti mövcud olmuş, həmçinin xalq sənətkarlığı, onun ən yayqın növlərindən olan xalçaçılıq inkişaf etmişdir.
Təəssüfki, nadir sənət inciləri olan abidələrimiz dədə-baba torpaqlarından deportasiya edilmiş xalqımızın buradakı izini silmək üçün məhv edilmiş, misli görünməmiş vandalizmə uğramışdır. 1918-ci ildə İrəvan xanlığı və digər tarixi bölgələrimizdə Ermənistan Respublikasının yaradılması ilə bu siyasət planlı şəkildə reallaşdırılmış, bir əsr ərzində həyata keçirilmiş etnik təmizləmə nəticəsində soydaşlarımızın doğma torpaqlarından üç dəfə məcburi deportasiyası baş tutmuşdur. Məhv edilən dəyərli abidələr içərisində XVIII əsr Azərbaycan memarlığının tanınmış tikililərindən olan İrəvan Sərdar sarayı da vardır. Dövrünün seçilən abidələrindən olan bu saray kompleksi öz memarlıq quruluşu və dekorativ tərtibatına görə yüksək bədii zövq və sənətkarlıqla işlənmişdi. Sarayı döşəyən rəngarəng xalçalar, divar və tavanlarını tərtib edən rəsmlər, portret və süjetli təsvirlər tarixi sənəd və fotolardan, rəssamlıq əsərlərindən hər kəsə məlumdur. Bu baxımdan bir sıra Avropa, rus tədqiqatçı və rəssamlarının araşdırma və rəsmləri mühüm mənbə rolunu oynayır.
Fransız səyyahı və rəssamı Dübua de Monperenin 1839-1843-cü illərdə altı cilddə çap olunmuş "Qafqaz ətrafına səyahət" kitabına əlavə edilmiş atlasların 3-cü hissəsində əksini tapmış İrəvan Sərdar sarayının Güzgülü zalının təsvirləri, rus rəssamları V.Maşkovun, Q.Qaqarinin rəsmləri, ingilis səyyahı Henri Linçin çəkdiyi fotoları xüsusi qeyd etmək olar ki, bu maddi sənədlər, rəsm və fotolar saray haqqında ümumi təsəvvür formalaşdırır.
Məlum olduğu kimi, İrəvan xanlığı türk sülaləsi Qacarlar tərəfindən idarə edilmişdir. Təsviri sənətdə Qacar üslubunun görkəmli nümayəndəsi, bu torpağın yetişdirməsi olmuş Mirzə Qədim İrəvani 1850-ci ildə Sərdar sarayının divar rəsmlərini bərpa etməklə yanaşı, burada yeni əsərlər də yaratmışdır. 1914-1918-ci illərdə saray ərazinin əzəli sakinləri olan soydaşlarımızın izlərini silmək üçün dağıdıldığı zaman rəssamın "Sərkərdə", "Fətəli şah" kimi portretləri divardan çıxarılaraq Tiflisə aparılıb.
Digər bölgələrimiz kimi Qərbi Azərbaycanda da toxuculuq azərbaycanlıların yüksək bacarıq və məharətlə məşğul olduqları sənət növlərindən idi. Evlərində qurduqları hanalarda səriştəli, yüksək bacarıqlı xanımlarımız bir-birindən rəngarəng xalçalar toxuyurdular. Sənədlərdə də əksini tapdığı kimi İrəvan xanlığının ərazisində demək olar ki, bütün ailələrdə toxuculuq dəzgahı mövcud olmuşdur. Bu məqam 1829-1832-ci illərdə çar Rusiyasının göstərişi ilə İrəvanda bir-bir evləri gəzərək əhalinin kameral





siyahıyaalınmasını həyata keçirmiş İ.Şopenin qeydlərində öz əksini tapmışdır.
Tanınmış Rusiya yazıçısı və diplomatı A. S. Qriboyedovun 1827-ci ilin dekabrında İrəvan Sərdar sarayının Güzgülü salonunda "Ağıldan bəla" əsəri tamaşaya qoyuldu. Qriboyedov Hüseynqulu xanın qonaqları qəbul etdiyi Güzgülü salonu ətraflı təsvir edərkən salonun döşəməsinin bahalı xalçalarla döşəndiyini də qeyd etmişdir.
Qərbi Azərbaycanda istehsal olunmuş xalı-xalçalar xalçaçılığımızın klassik ənənələrinə söykənən zəngin naxış və kolorit həllindən bəhrələnmişdir. Bu ənənəni regiona daxil olan mahallarla yaxın sərhədlərdə yerləşən xalçaçılıq mərkəzləri şərtləndirmişdir. Məsələn, İrəvan və Zəngibasar mahalına aid ərazilərdə toxunmuş xalçalarda Təbriz, Qarabağ, Naxçıvan, Şəmşəddil və Göyçə mahallarında Gəncə-Qazax, Borçalı, Zəngəzur mahalında isə Qarabağ xalçaçılığının bədii-texniki sirləri üstünlük təşkil edir.
Ümumilikdə, Azərbaycanın Qərb bölgəsində formalaşmış xalça mədəniyyəti qədim qoyunçuluq və yunçuluq təsərrüfatının inkişafı üzərində qurulmuşdur. Burada Qazaxın dünyaca məşhur olan "Borçalı", "Dəmirçilər", "Muğanlı", "Göyçəli", Qarabağın "Ləmpə", "Çələbi", "Qasımuşağı", "Qubadlı" və bu kimi digər əvəzsiz xalça kompozisiyalarının güclü təsirini görmək mümkündür. Amma xovsuz xalça və xalça məmulatlarının klassik nümunələri hələ də bu bölgə üzrə öz əsaslı tədqiqatlarını gözləməkdədir. Çünki qədim türk elatının gizlinlərinin Qərbi Azərbaycan xalçaçılığında hələ də aşkar olunmaması daha böyük həqiqətlərdən xəbər verir.
"Qərbi Azərbaycan xalçaları: tarixi naxış yaddaşımız" sərgisində yurdundan uzaq düşmüş soydaşlarımızın özləri ilə gətirdikləri, əziz, müqəddəs bir əşya kimi qoruduqları xalçalar yer alıb. Onların hər biri müəyyən bir xatirə daşıyıcısıdır. Ananın övladı, nənənin nəvəsi və digər əziz insanlar üçün toxunulan xalçalarda, sanki insan taleləri əks olunub. Bu xalçalar o doğma torpaqlarda keçən gözəl, xoşbəxt günlərin yadigarlarıdır. Özlərində maraqlı məlumatlar daşıyan "Qasımuşağı", "Ləmpə", "Muğan", "Qubadlı", "Gəncə" və digər xalçalarda şərəfinə toxunduqları şəxslərin adları və tarixi kimi informativ detallar kompozisiyalarda elə məharətlə yerləşdirilmişdir ki, sanki onlar da naxış elementinə çevrilmişdir. Məsələn, çox gözəl kompozisiya həllinə malik "Qasımuşağı" xalçasının S-vari "ağ qol" larının kənarlarında verilən yazılar ilk baxışdan ornamenti xatırladır. Bu xalçanın ara sahəsinin mərkəzi elementi ilə künc elemenləri arasındakı ağ yerlikli boşluqda verilmiş qarmaqlı elementlər xalq arasında "əqrəb" və ya "əjdaha" adlanır. Burada həmin ağ yerliklə künc hissələrin arasında yazılan sözlər naxışa bənzər şəkildə xüsusi ustalıqla tərtib olunmuşdur. Xalça üzərində kiril əlifbası ilə verilmiş belə bədii həllə nadir hallarda rast gəlmək olur. Qadınlarımız məşhur kompozisiyalar əsasında toxuduqları xalçalara bu cür fərdi yanaşma ilə öz duyğu və hisslərini qatmaq, fərqli kolorit həlli vermək, məlumat xarakterli detalları ustalıqla əlavə etməklə onları özünəməxsus etməyi bacarmışlar.
Sərgidə, həmçinin maraqlı kompozisiya quruluşu ilə seçilən xovsuz xalça şəddə və xalça məmulatı olaraq məişətdə geniş istifadə edilmiş xurcun nümayiş etdirilir.
Qərbi Azərbaycanın ruhunu daşıyan bu xalçalar həm bədii, həm də tarixi baxımdan çox dəyərlidirlər. Bu sərgi zəngin milli irsimizin daşıyıcılarından olan xalçalarımız vasitəsilə çoxəsrlik mədəniyyətimizin bir parçasını - Qərbi Azərbaycanın şərəfli keçmişini əks etdirir. Gün gələcək soydaşlarmız öz əzəli torpaqlarına qayıdacaq və yenidən hanalar quraraq al-əlvan xalçalar öz doğma yurdlarında toxunacaq...

**Şirin Məlikova**
**Azərbaycan Milli Xalça Muzeyinin direktoru,**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**

This prideful year of full restoration of sovereignty of Azerbaijan has become a glorious page in the history of our statehood. In such an important year, on December 5th, 2023 the Azerbaijan National Carpet Museum together with Western Azerbaijan Community presents the exhibition Western Azerbaijani Carpets: The Memory of Our Historical Pattern. The exhibition held within the framework of the 100th anniversary of National Leader Heydar Aliyev displays more than 20 famous carpets with famous compositions woven by various artists in the regions and villages of Goycha, Zangezur, Agbaba, Pambak and Loru counties of Western Azerbaijan.

The Azerbaijani carpet is the main symbol uniting the centuries-old traditions, reflecting thoughts about the material and spiritual world, it inspires the preservation of our ancient and deep-rooted values. In the Azerbaijani culture, the carpet is more than just a household subject, it unites different cultural classes, historical periods and styles, and reflects the originality of national identity and artistic taste. It is a part of our mental-aesthetic culture, the order of the structure of the universe, a living tradition that is constantly evolving. The carpet, which has been an integral part of our people's life for thousands of years, has been woven in every region, in all the territories that historically belonged to Azerbaijan, and Western Azerbaijan is one of these ancient carpet weaving centers.

Since the ancient times, the territory of Western Azerbaijan owned by the Turkic tribes was the part of the Azerbaijani states, which had different names. This region, densely populated by the Azerbaijanis over the centuries, historically had many architectural monuments, high palace culture, and of course, highly developed carpet weaving art, one of the most widespread types of folk crafts.

Regretfully, unique monuments were destroyed and undergone unprecedented vandalism aimed to wipe out any trace of our people forcibly deported from their native land. With the establishment of the Republic of Armenia on the territory of Erivan Khanate and other historical Azerbaijani regions in 1918, this policy was implemented in a planned manner, as a result of ethnic cleansing carried out over a century, three forced deportations of our compatriots from their native lands took place.

Among the destroyed valuable monuments is the Erivan Sardar Palace, one of the well-known buildings of the 18th-century Azerbaijani architecture. This palace complex, one of the distinguished monuments of its time, was designed with high artistic taste and artisanship in virtue of its architectural structure and decorative layout. Colourful carpets decorating the palace, paintings on its walls and ceilings, portraits and plot paintings are known to everyone from historical documents, photographs and paintings. In this regard, researches and paintings by a number of European and Russian researchers and artists are an important source.

The material documents, paintings and photos such as images of the Mirror Hall of the Erivan Sardar Palace, shown in Vol. 3 of the atlases attached to the book Travel around the Caucasus by the French traveler and artist Dubois de Montpereux, published in six volumes in 1839-1843, paintings by the Russian artists V. Mashkov and G. Gagarin, photos taken by the English traveler Henry Lynch, can be especially noted as they form the general idea of the palace.

The Erivan Khanate was ruled by the Turkic dynasty Qajars. Mirza Gadim Irevani, a prominent representative of the Gajar style of the fine arts, native of this land, not only restored the wall paintings of the Sardar Palace in 1850, but also created new works here. In 1914-1918, when the palace was destroyed to erase the traces of our compatriots, the ancient inhabitants of this territory, portrait paintings of the artist, such as Warlord and Fatali Shah, were removed from the wall and transported to Tbilisi.

Like in other regions of the country, Azerbaijanis achieved high mastery in the carpet weaving in Western Azerbaijan. Highly skilled women weaved colourful carpets on





the looms in their homes. The documents of the time show that almost every family of the Erivan Khanate had a weaving loom in their home. This information can be found in the notes by I. Chopin, made during population census in Erivan by the order of Tsarist Russia from 1829 to 1832.

The play Woe from Wit by the famous Russian writer and diplomat A. S. Griboyedov was staged in the Mirror Hall of the Erivan Sardar Palace in December, 1827. Griboyedov described in detail the Mirror Hall where Huseyngulu Khan received guests, noting that the floor of the hall was laid with expensive carpets.

The carpets woven in Western Azerbaijan are based on rich patterns and colour scheme of art that is formed by the classic traditions of our carpet weaving. This tradition was formed by the carpet weaving centres neighboring with the counties of the region. The carpets woven in Erivan and Zangibasar county were influenced by artistic and technical features of Tabriz, Karabakh and Nakhchivan carpet weaving. Ganja-Gazakh and Borchali carpet weaving impacted the carpets of Shamshadil and Goycha counties while the carpets of Zangezur county are dominated by artistic and technical features of Karabakh carpet weaving.

Apparently, the carpet culture formed in the Western region of Azerbaijan is based on the development of ancient sheep and wool farming. Here one can see the strong influence of the world-famous carpet compositions of Gazakh such as Borchali, Damirchilar, Mughanli, Goychali, as well as Lampa, Chelebi, Gasimushagi, Gubadli carpets of Karabakh, and other examples. Yet, the classic samples of flat-woven carpets and carpet products of this region still require a serious research. As the secrets of the ancient Turkic tribes have not yet been revealed, the Western Azerbaijani carpet weaving testifies to even greater truth.

The exhibition Western Azerbaijani Carpets: The Memory of Our Historical Pattern showcases the carpets brought by our compatriots deported from their native land. They treat these carpets like a relic. Each of these carpets is a reminder of a certain memory. A carpet woven by a mother for a child, or by a grandmother for a grandchild and other dear people seem to reflect human destinies. These carpets are reminders of happy and careless days spent at the native land. The carpets Gasimushaghi, Lampa, Mughan, Gubadli, Ganja, etc., carry interesting information, dates and names of men these carpets are dedicated to. These details became the elements of patterns of composition. For example, at first glance, the inscriptions on the sides of S-shaped white hands of the carpet Gasimushaghi with beautiful composition remind an ornament. The elements with hooks between the central element and the corner elements of the central field on the space with white background are called agrab (scorpion) or ajdaha (dragon) among the people. The inscriptions between the white background and corner parts are designed like a pattern with high mastery. Such artistic decision for these inscriptions written in Cyrillic occur very rarely. The Azerbaijani women managed to skillfully add their feelings, unique colour scheme and informative details to the carpets woven based on the famous compositions.

The exhibition also displays the flat-woven shadda with interesting composition and the carpet product khurjun (a valise consisting of two parts), widely used in household.

These carpets that carry the spirit of Western Azerbaijan are significant in terms of art and history. This exhibition reflects the proud past of Western Azerbaijan, the part of our centuries-old culture through carpets that are one of the bearers of rich national heritage. Someday, our compatriots will return back to their native land and the colourful carpets will be woven on their homeland.

**Shirin Melikova**
Director of the Azerbaijan National Carpet Museum,
PhD in Arts, Associate Professor



# Şəddə

1

**Gəncə-Qazax tipi, Qazax qrupu**
**1930-cu il**
**Əriş, arğac – yun**
**Keçirtmə, dolama texnikası**
**259 x 207 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Göyçə mahalı, Basarkeçər rayonu, Daşkənd kəndində Narın Qasım qızı Piriyeva tərəfindən toxunub.**

Mürəkkəb dolama üsulu ilə hazırlanmış şəddənin həm bədii kompozisiyası, həm də elementləri maraqlı həllə malikdir. Onun kvadratlara bölünən bədii kompozisiyası müasir dövrdə dama-dama, orta əsrlərdə isə şətrənc (şahmat) adlanmışdır. Orta əsrlərdə dama naxışlı ipək parçalara və sadə keçirtmə (palaz) üsulu ilə yundan toxunan nazik xalçalara da "şətrənci" deyilirdi. Şəddələri bədii xüsusiyyətlərinə görə saya, damalı və süjetli qruplara bölmək olar. Saya şəddələr əsrlər boyu Azərbaycanda şal adı altında istehsal edilən şəddələrdir. Bildiyimiz kimi, keçmişdə şal sadə və mürəkkəb olmaqla iki toxunuşda istehsal edilirdi. Sadələr yalnız əriş və arğacdan ibarət iki iplə, sadə keçirmə (kətan) texnikası ilə toxunurdu. Mürəkkəb toxunuşlularda isə əriş və arğacdan əlavə, naxışları yaradan müxtəlif rəngli üçüncü bir ipdən də istifadə edilirdi. Təqdim olunan nümunə kompozisiya baxımından qədirqəni xatırladan şəddədir. Bu şəddə öz bədii quruluşu ilə fərqlidir. O ətraf hissələrdən "ziqzaq"larla dövrələnib. Belə şəddələrə xalq arasında "gərdəklik" də deyirlər. Gərdəklik Azərbaycanın qədim toy adətlərində istifadə olunan pərdədir.









# Xalça "Dəmirçilər"

2

**Gəncə-Qazax tipi, Qazax qrupu**
**1947-ci il**
**Əriş, arğac, xov – yun**
**313 x 157 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Göyçə mahalı, Basarkeçər rayonu, Daşkənd kəndində Gülüstan Allahverdi qızı Həsənova tərəfindən toxunub.**

Gəncə-Qazax tipinin Qazax qrupuna daxil olan bu xalçanın adı Qazax şəhərindən 9 kilometr qərbdə yerləşən Dəmirçilər kəndinin adı ilə bağlıdır. "Dəmirçilər" adı ilə tanınan xalçalar müxtəlif quruluşa malikdir. Görkəmli xalçaçı-rəssam Lətif Kərimov bu xalçaların 3 əsas variantını qeyd edir. Təqdim edilən xalça I varianta aiddir. Xalçanın ara sahəsinin bədii tərtibatı çoxbucaqlı göllərdən ibarətdir. Bir-birinin ardınca düzülən bu göllər kompozisiyanın əsasını təşkil edir. Ara sahədəki göllərin sayı xalçanın uzunluğu ilə müəyyən edilir. Belə xalçalarda 3-5 sayda göl elementindən istifadə olunur. Bu xalçada isə şaquli istiqamətdə 5 göl elementi ritmik olaraq təsvir olunub. Təqdim olunan "Dəmirçilər" xalçasında "cağ" və "dilikli" adlanan haşiyələrdən istifadə edilib. Xalçanın ara sahəsinin yuxarı sol və sağ küncləirndə "1947" tarixi yazılıb. Sərgidə nümayiş olunan iki ədəd "Dəmirçilər" xalçasından bu nümunə rəng baxımından klassik "Dəmirçilər" kompozisiyasına daha çox bənzəyir.









3

# Xalça "Ləmbəli"

**Gəncə-Qazax tipi, Qazax qrupu**
**1947-ci il**
**Əriş, arğac, xov – yun**
**250 x 138 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Pəmbək mahalı, Hamamlı rayonu, Saral kəndində Fatmanisə Qurban qızı Ramazanova tərəfindən toxunub.**

Təqdim olunan xalça "Borçalı" xalçalarının IV variantına aiddir. Bu varianta xalçaçılar tərəfindən "Ləmbəli" adlandırılan xalçalar daxildir. Belə təsvirli xalçaların ara sahəsinin mərkəzində yerləşən göllər Qazax qrupunun digər xalçalarının göllərindən ölçülərinə görə daha böyükdür. Gölün mərkəzində, qocaman xalçaçıların fikrincə, "çanaxlı bağa" – tısbağa təsviri var. Bütün medalyonların ətrafı boyunca bir sıra doldurucu elementlər toxunmuşdur. Ara sahəsinin bədii tərtibatında üç eyni tipli göldən istifadə olunub. Xalçanın sol tərəfindəki haşiyədə kiril əlifbası ilə "Исмеил" [İsmayıl], "Полат" [Polat] və sağ tərəfindəki haşiyədə isə "1947" sözləri yazılıb. Xalça Fatmanisə Ramazanova tərəfindən oğulları İsmayıl və Poladın şərəfinə toxunmuşdur.









# Xalça "Muğan"

4

**Qarabağ tipi, Cəbrayıl qrupu**
**1949-cu il**
**Əriş, arğac, xov – yun**
**294 x 147 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Göyçə mahalı, Basarkeçər rayonu, Daşkənd kəndində Gülüstan Allahverdi qızı Həsənova tərəfindən toxunub.**

Təqdim olunan xalça "qoşa göl" kompozisiyası əsasında qurulub. Ana göl "Muğan" xalçası üçün xarakterikdir. "Muğan" xalçalarının adı Azərbaycanın cənub-şərqində, Kür və Araz çayları arasında yerləşən böyük ərazinin adı ilə əlaqədardır. Bu xalçaların əsas bəzəyi xalçaçılar arasında "köhnə naxış" adını almış çoxqarmaqlı elementlərdən ibarətdir. Göllərin mərkəzindəki ifadəli boşluqlarda səkkizbucaqlı ulduz elementləri təsvir olunub. Xalçanın ana haşiyəsinin hər iki ətrafında klassik "dolanqac" və ya "meandr" adlanan elementlərdən istifadə edilib. Xalçanın yuxarı hissəsindəki haşiyədə kiril əlifbası ilə "1949 ил январ 16" [1949 il yanvar 16 ] və Hicri-qəməri təqvimi ilə 1371/1951 yazılıb.





– 4287



Azərbaycan Respublikası
Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI



# Xalça "Çıraqlı"

5

**Gəncə-Qazax tipi, Gəncə qrupu**
**1947-ci il**
**Əriş, arğac, xov – yun**
**250 x 134 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Göyçə mahalı, Basarkeçər rayonu, Kəsəmən kəndində Güləbətin Qoşnalı qızı Binnətova tərəfindən toxunub.**

Gəncə-Qazax tipinin Gəncə qrupuna daxil olan bu xalçanın adı Gəncədən 35 kilometr cənubda (indiki Daşkəsən rayonunda) yerləşən Çıraqlı kəndinin adından götürülmüşdür. Bəzi xalçaçılar bu xalçanı "Qazaxça", "Gəncə", "Fəxralı", "Şamxor" adlandırırlar. Göllərin daxilindəki elementlər qədim Muğan xalçalarının naxışları və həmçinin kilim ornamentləri ilə oxşarlıq təşkil edir. Ara sahənin sağ və sol tərəflərində maral təsvirləri var. Xalçanın sağ tərəfində "1947", sol tərəfində isə kiril əlifbası ilə "Məсим" [Məsim] adı yazılıb. Xalça Güləbətin Binnətova tərəfindən oğlu Məsimin şərəfinə toxunmuşdur.









# Xalça "Ləmbəli"

6

**Gəncə-Qazax tipi, Qazax qrupu**
**1948-ci il**
**Arğac, xov – yun, əriş – pambıq**
**211 x 127 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Loru mahalı, Barana rayonu, Yuxarı Körpülü kəndində Şövkət Vəli qızı Rəhimova tərəfindən toxunub.**

Təqdim olunan xalça "Borçalı" xalçalarının IV variantına aiddir. Bu varianta aid xalçalar "Ləmbəli" adı ilə tanınır. Belə təsvirli xalçaların ara sahəsinin mərkəzində yerləşən göllər Qazax qrupunun digər xalçalarının göllərindən ölçülərinə görə daha böyükdür. Gölün mərkəzində ən qocaman xalçaçıların fikrincə, "çanaxlı bağa" – tısbağa təsviri var. Xalçanın haşiyə qurşağında həndəsi formalı elementlərdən və gül-çiçək naxışlarından istifadə olunub. Üzərində kiril əlifbası ilə "27/XII 1948 ил" [27/XII 1948 il ] yazılıb.









# Xalça "Öysüzlü"

7

**Gəncə-Qazax tipi, Qazax qrupu**
**1949-cu il**
**Arğac, xov – yun, əriş – yun, pambıq**
**317 x 202 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Göyçə mahalı, Basarkeçər rayonu, Subatan kəndində Xəzəl Orucəli qızı Əhmədova tərəfindən toxunub.**

Təqdim olunan nümunənin ümumi kompozisiyası Qazax qrupuna aid bir neçə xalçanın ornamental motivindən tərtib olunub. Xalçanın ara sahəsində mərkəzi ox boyunca tərtib olunmuş romb formalı iri qarmaqlı göl "Öysüzlü" xalçaları üçün xarakterkdir. Burada "əjdaha" elementini əmələ gətirən təsvir isə "qarmaqlı gərdəkbaşı" adlandırılan naxışdır. Onlar ara sahənin yan tərəflərində qarşı-qarşıya təsvir olunub. Bu xalçada, həmçinin "Kəmərli" və "Qaçağan" xalçalarının ara sahəsinin kompozisiyasına xas olan bəzi elementlərdən də istifadə edilib. Gərdəkbaşı elementlərinin bu şəkildə geniş yayılması Qazax xalçaçılıq ənənəsində geniş yer almışdır.









# "Borçalı" xalçasının III variantı

8

**Gəncə-Qazax tipi, Qazax qrupu**
**1953-cü il**
**Əriş, arğac – pambıq, xov – yun**
**259 x 139 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Göyçə mahalı, Basarkeçər rayonu, Qoşabulaq kəndində Məleykə Daşdəmir qızı Məmmədova tərəfindən toxunub.**

Qazax qrupuna aid olan xalçanın adı Azərbaycanın Qazax rayonundan şimal-qərbdə, indiki Gürcüstan Respublikası ərazisində yerləşən və tarixən azərbaycanlıların məskunlaşdığı Borçalı regionunun adı ilə bağlıdır. Regionun Qurdlar, Axurlu, Qaçağan, Sadaxlı, Daştəpə və Ləmbəli kimi iri kəndləri bu xalçaların əsas toxunma yerləri olmuşdur. Yuxarıda adı çəkilən kəndlərin, həmçinin Borçalının digər kəndlərinin əhalisi əsasən etnik azərbaycanlılardan ibarətdir. "Borçalı" adı ilə tanınan xalçalar bədii quruluşundan asılı olaraq bir neçə variantı təşkil edir. Təqdim olunan xalça "Borçalı" xalçalarının III variantına aiddir. Üçüncü variant xalçaçılar arasında "Ziynətnişan" və ya "Zeyvanişan" adı ilə tanınır. Onlar əsasən Borçalı rayon mərkəzinin şimal-qərbində yerləşən Qızılhacılı kəndində istehsal olunur. Xalçanın ara sahəsinin mərkəzində xaçşəkilli medalyon yerləşir. Bu medalyonun xaç olduğuna dair yanlış fikir var. Medalyonun mərkəzində "Gəncə şəhər" xalçasının gölü təsvir olunub. Haşiyəsində "bağçadagüllər" xalçasının elementlərindən istifadə edilib. Bəzi hallarda bu kompozisiya "Göyçəli" də adlanır. Qeyd edək ki, bu ad hal-hazırda Ağstafa rayonu ərazisində yerləşən Göyçəli kəndinin adı ilə bağlıdır. Xarici ədəbiyyatda səhvən bu kompozisiya "Sevan" adı ilə qeyd olunur.









# Xalça "Dəmirçilər"

9

**Gəncə-Qazax tipi, Qazax qrupu**
**1956-cı il**
**Əriş, arğac, xov – yun**
**282 x 146 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Göyçə mahalı, Basarkeçər rayonu, Daşkənd kəndində Xanımzər Əmrəli qızı Cavadova tərəfindən toxunub.**

Qazax qrupuna daxil olan bu xalçanın adı Qazax şəhərindən 9 kilometr qərbdə yerləşən Dəmirçilər kəndinin adından götürülüb. Bəzi xalçaçılar bu xalçaya "Dəmirçi Həsən" də deyirlər. Daş-Salahlı, Kosalar və Ürkməzli kəndlərində də istehsal olunur. "Dəmirçilər" adı ilə tanınan xalçalar müxtəlif quruluşa malikdir və görkəmli xalçaçı-rəssam Lətif Kərimov onların 3 əsas variantını qeyd edir. Təqdim edilən xalça I varianta aiddir. Onun ara sahəsinin tərtibatı çoxbucaqlı göllərdən ibarətdir və bir-birinin ardınca düzülən bu göllər şaquli xətt boyunca verilmişdir. Ana haşiyə "qayçı", ətrafını əhatələyən bala haşiyələr isə "dolamaquyruq" adlanır.









# Xalça "Ləmpə"

10

**Qarabağ tipi, Şuşa qrupu**
**1961-ci il**
**Əriş, arğac – pambıq, xov – yun**
**325 x 154 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Göyçə mahalı, Basarkeçər rayonu, Daşkənd kəndində Səlfinaz Ənvər qızı Kərimova tərəfindən toxunub.**

Qarabağ tipinin Şuşa qrupuna daxil olan "Ləmpə" xalçaları XIX əsrin birinci yarısında Şuşada istehsal edilirdi. Onlar əsasən dəst xalı-gəbə şəklində toxunurdu. İstər quruluşuna, istərsə də kompozisiyasına görə "Ləmpə" xalçaları Qarabağ xalça qrupunun ən mürəkkəb xalçaları hesab olunur. Müəyyən dərəcədə Cəbrayıl qrupuna daxil olan "Xanlıq" xalçalarına da bənzəyir. Təqdim olunan xalça tək göl kompozisiyalı "Ləmpə" xalçasıdır. Bu xalçanın kompozisiyası ara sahənin mərkəzində çoxguşəli göllə səciyyələnir. Gölün yuxarı və aşağı hissələrində "Ləmpə"yə xas olan iri, uzunsov formalı kətəbələr var. Göl və kətəbə bir-birinin ardınca, ara sahənin sonuna qədər təkrarlanır. Xalçanın üzərində kiril əlifbası ilə "1961-чи ил" [1961-ci il ] yazılıb.










# Xalça "Ləmpə"

11

**Qarabağ tipi, Şuşa qrupu**
**1961-ci il**
**Əriş, arğac, xov – yun**
**315 x 118 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Göyçə mahalı, Basarkeçər rayonu, Aşağı Şorca kəndində Röyzə Əhməd qızı Hümbətova tərəfindən toxunub.**

Təqdim olunan xalçada tək göl kompozisiyalı "Ləmpə" gölündən istifadə olunub. Qarabağ tipinin Şuşa qrupuna daxil olan "Ləmpə" xalçaları XIX əsrin birinci yarısında Şuşada toxunurdu. Adətən bu kompozisiyalı xalçalar dəst şəklində toxunur. İstər quruluşuna, istərsə də kompozisiyasına görə "Ləmpə" xalçaları Qarabağ xalça qrupunun ən mürəkkəb xalçaları hesab olunur. Haşiyə zolaqları Quba-Şirvan xalçalarına xas olan "qayçı" və "dolanqac" ("meandr") elementləri ilə bəzədilib. Ara sahədə "qarmaqlı", "ulduzlu", "çəngəl" adlanan müxtəlif doldurucu elementlərdən də istifadə edilib. Xalçanın üzərində kiril əlifbası ilə "Сабир" [Sabir] adı və 22/III – 1961 16/62" tarixi yazılıb. Eklektik xalçadır və xalq toxuculuğunun məhsuludur.









# "Taxtı kilim"

12

**Qarabağ tipi**
**1964-cü il**
**Əriş, arğac – yun**
**Keçirtmə texnikası**
**227 x 110 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Göyçə mahalı, Basarkeçər rayonu, Dərə kəndində Fatma Əli qızı Vəliyeva tərəfindən toxunub.**

Yaxın Şərq, Orta Asiya və Qafqazda, o cümlədən, Azərbaycan xalqı arasında geniş yayılmış xovsuz xalça növlərindən biri "palaz" adı ilə məşhur olan xalçalardır. Azərbaycanda palaz növü başqa xovsuz xalçalardan daha çox istehsal edilmişdir. Materialından, bədii xüsusiyyətindən və istehsal olunduğu yerdən asılı olaraq, bu palazlar müxtəlif adlar altında yayılmışdır. Təqdim olunan xovsuz xalçanın toxunuşunda həm palaz, həm də kilim texnikasından istifadə edilib. Bu da öz növbəsində toxunulan xovsuz xalçanın bədii keyfiyyətini artırır. Qeyd edək ki, palazlar sadə, kilimlər isə mürəkkəb keçirtmə texnikası ilə toxunur. Nümunənin üzəri üfüqi istiqamətdə kilim üçün xarakterik olan həndəsi formalı elementlərlə bəzədilmişdir. El arasında belə xovsuz xalça nümunəsinə "naxışlı palaz", "zolaqlı kilim", "taxtı kilim", "dilimli palaz" da deyirlər.









# Xalça "Muğanlı"

13

**Gəncə-Qazax tipi, Qazax qrupu**
**1964-1965-ci illər**
**Əriş, arğac, xov – yun**
**238 x 151 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Göyçə mahalı, Basarkeçər rayonu, Daşkənd kəndində Şölə Oruc qızı Piriyeva tərəfindən toxunub.**

Təqdim olunmuş xalçanın adı Qazax rayonunun Muğanlı kəndindən götürülmüşdür. Muğanlı xalçaçılıq məntəqələrindən biri olub. Görkəmli xalçaçı-rəssam Lətif Kərimov qeyd edir ki, 13 müxtəlif rayonda Muğanlı adlı kənd var. Qeyd edək ki, Gəncə-Qazax tipinin Qazax qrupuna daxil olan "Qaçağan" xalçaları əvvəllər Qaçağandan 10 kilometr şərqdə yerləşən Muğanlı kəndinin adı ilə bağlı olaraq "Muğanlı" adlanırdı. Xalçanın ara sahəsində şaquli istiqamətdə "Muğan" xalçalarına xas beş ədəd iri ölçülü göl təsvir olunub. Həmin forma içəriyə doğru bir neçə dəfə təkrarlanır. Göllərin ortasında və ara sahədə "qarmaqlı", "qıvrım", "çəngəl" və s. adla tanınan elementlər yerləşdirilib. Ana haşiyənin kompozisiyası rapport şəklində təkrarlanan "qarmaqlı" və ya "qoşabuynuz", bala haşiyə isə "dilikli" adlı zolaqlardan tərtib olunub. Eyni zamanda, doldurucu element kimi də buynuz motivindən istifadə edilib.









# Xurcun

14

**Qarabağ tipi**
**1964-cü il**
**Əriş, arğac, naxış və üz ipləri – yun**
**Keçirtmə, dolama texnikası**
**130 x 48 sm**

**Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) tarixi Göyçə mahalı, Basarkeçər rayonu, Göysu kəndində Səməngül Qurban qızı Əzizova tərəfindən toxunub.**

